# DƏMİR VƏ ONUN BİRLƏŞMƏLƏRİ MÖVZUSUNUN TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞLƏRİNİN TƏŞKİLİ VƏ BİLİKLƏRİNİN İNKİŞAF ETDİRİLMƏSİ

**Ə.N.Qurbanov, A.B.İmaməliyev, A.F.Səfərova**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

**Şagirdlərin aktivliyinin artırılması və bilik səviyyəsinin təkmilləşdirilməsi probleminin həlli üçün effektiv istiqamətlərdən biri, onların müstəqil işlərinin keçirilməsidir. Müəllim elə etməlidir ki, dərsdə bütün sinif iştirak etsin. Bu məqsədlə müəllim bütün sinifdə şagirdlərin hər birinin bilik səviyyəsini nəzərə alaraq müstəqil iş üçün mövzu təşkil etməlidir. Bu məsələni həll etmək üçün müəllim şagirdlərin hər birinin bilik səviyyəsinə uyğun tapşırıqlar seçməlidir. Müəllim konkret olaraq dəmir və onun birləşmələrinə aid müstəqil işin təşkili və keçirilmə metodikasını verməlidir.**

**Birinci dərsdə** "Dəmir və onun elektron quruluşu, fiziki, kimyəvi xassələri"ni öyrənərkən əsas məqsəd: dəmir mövzusuna aid şagirdlərin bilik və bacarıqlarının konkretləşdirilməsi, onlarda metalların elektron quruluşunun xüsusiyyəti və xassələri ətraflı izah olunmalıdır. Burada şagirdlərdə metallar haqqında biliklərin inkişaf etdirilməsi əsas olmalıdır. Dərsdə metalların dövri sistemdə mövqeyi, atomun quruluş və xassələri haqqında şagirdlərin bilik və bacarıqları təkmilləşdirilməli və inkişaf etdirilməlidir. Dərsin başlanğıcında - əlavə yarımqrupda yerləşən metal atomlarının elektron quruluşu nə ilə fərqlənir sualını aydınlaşdırmaq üçün elektron quruluşunu əks etdirən cədvəldən istifadə edilir. Müəllimin köməkliyi ilə şagirdlər cədvəldə verilənləri müzakirə etdikdən sonra nəticə çıxarılır:

1. Əlavə yarımqrup metalları elektron quruluşuna görə, valentlik elektronlarının xarici elektron təbəqəsindən başqa həm də daxili elektron təbəqəsində olan elektronlardan istifadə etməsinə görə fərqlənir.
2. Əlavə yarımqrupda yerləşən metallar kimyəvi rabitə əmələ gətirən zaman, rabitənin əmələ gəlməsində müxtəlif sayda elektron iştirak edir.
3. Metalların atomlarının elektron quruluşunun fərqli xüsusiyyəti onların kimyəvi xassələrində və birləşmələrində özünü göstərir.

Cədvəldə verilmiş atomun elektron quruluşuna aid məlumatlardan hansı əlavə yarımqrup metallarına aiddir, onu seçin sualı ilə müəllim sinfə müraciət edir.

| № | Nüvənin yükü | Təbəqələrdə elektronların paylanması | Elektron formulu |
|---|---|---|---|
| 1 | + 12 | 2, 8, 2 | $1s^22s^22p^63s^2$ |
| 2 | + 24 | 2, 8, 12,2 | $1s^22s^22p^63s^23p^63d^44s^2$ |
| 3 | + 21 | 2, 8, 9, 2 | $1s^22s^22p^63s^23p^63d^14s^2$ |
| 4 | + 26 | 2, 8, 14, 2 | $1s^22s^22p^63s^23p^63d^64s^2$ |
| 5 | + 11 | 2, 8, 1 | $1s^22s^22p^63s^1$ |
| 6 | + 19 | 2, 8, 8, 1 | $1s^22s^22p^63s^23p^64s^1$ |

Müəllim göstərilənlərin bir daha aydın olması və ümumi nəticə çıxarmaq üçün dəmir və onun birləşmələrinin xassələrini öyrənməyin biliklərin inkişaf etdirilməsində əhəmiyyətini göstərdikdən sonra sxem üzrə müstəqil işin yerinə yetirilməsini təklif edir:

1. Cədvəldə mövqeyi : { Fe – dördüncü dövr, cüt sıra, VIII qrupun əlavə yarımqrupu

2. Atomun quruluşu : { Nüvənin yükü +26 ,elektronların paylanması $1s^2 2s^2 2p^63s^23p^63d^64s^2$

3. Oksidləşmə - reduksiya xassəsi: {
$Fe^0 - 2\bar{e} \rightarrow Fe^{+2}$ (oksidləşmə)
$Fe^{+2} + 2\bar{e} \rightarrow Fe^0$ (reduksiya)
$Fe^{+2} - \bar{e} \rightarrow Fe^{+3}$ (oksidləşmə)
$Fe^{+3} + \bar{e} \rightarrow Fe^{+2}$ (reduksiya)

4. Oksidləşmə dərəcəsi : ( +2, +3 )

5. Birləşmələri : ($FeO$, $Fe_2O_3$, $Fe(OH)_2$, $Fe(OH)_3$, $FeCl_2$, $FeCl_3$ və.s)

Dərsi ümumiləşdirmək və materialın mənimsənilmə dərəcəsini müəyyən etmək üçün hər qrupda 4 şagird olmaqla sinif qruplara bölünür və aşağıdakı məzmunda sualların icrası tapşırılır:

1. Dövri sistemdə mövqeyinə görə elementləri xarakterizə edən plan tərtib edin.
2. Aşağıdakı kristal qəfəsi sxemlərindən hansı metal kristal quruluşu göstərir? Metal rabitəsini xarakterizə edin:



A) B) C)

3.Metallar üçün hansı ümumi fiziki xassələr xarakterikdir ?
4. Qatı və duru nitrat turşusu dəmirə necə təsir edir ?

Metalların ümumi xassələrinə aid aparılan müzakirədən sonra hər bir şagird müstəqil iş aparır və nəticə yazı taxtasında müzakirə edilir. Şagirdlərin bilikləri müəyyənləşdirilir. Şagirdlərdə dəmirin elektron quruluşu, xassələri və mühüm birləşmələri haqda biliklər inkişaf etdirilir. Dəmirin α-Fe, β-Fe formaları izah edilir və bu formaların xüsusi növ polad istehsalında əhəmiyyəti izah olunur. Verilən izahatdan sonra dəmirin kimyəvi xassələri öyrənilir:

I.Plan üzrə verilmiş sxemdən istifadə edərək nəzəri analiz aparın :

Atomun quruluşu
↓
Kimyəvi rabitənin növü
↓
Kristal qəfəsin tipi
↓
Kimyəvi xassələri

II.Maddənin kimyəvi xassəsi haqda fikrinizi söyləyin:

1) Bəsit maddələrə münasibəti
   - metal
   - qeyri-metal

2) Mürəkkəb maddələrə münasibəti
   - suya
   - qeyri-metallara
   - turşulara
   - duzlara

III. Kimyəvi reaksiya tənliklərini tərtib edin (molekulyar və ion formada).

Dəmirin kimyəvi xassələrinin müzakirəsi zamanı şagirdlər yeni biliklər qazanırlar. Bu zaman dəmirin oksigenlə, xlorla və digər qeyri-metallarla, su, turşu məhlulları və duzlarla qarşılıqlı təsiri təcrübə aparılaraq nümayiş etdirilir və reaksiya tənlikləri yazılır. Reaksiyanın mahiyyətinin elektrolitik dissosiasiya nəzəriyyəsi və oksidləşmə-reduksiya prosesi baxımından izahına xüsusi fikir verilməlidir.

Təcrübələr şagirdlər tərəfindən müstəqil yaxud müəllimin köməyi ilə yerinə yetirilir. Dərsin bu forması şagirdlərdə biliklərin inkişaf etdirilməsi və möhkəmləndirilməsinə xidmət edir, onlarda demonstrasiya təcrübələri aparmaq vərdişi yaradır. Dərsdə şagirdlər müstəqil təcrübə aparır:

**Təcrübə 1. Adi şəraitdə dəmirin su ilə qarşılıqlı təsiri:**

Bu məqsədlə dərsdən bir həftə əvvəl 3 sınaq şüşəsinin hər birinə dəmir mismar salınır. Onlardan biri oksigenlə doldurulur və ağzı bağlanır, ikinci sınaq şüşəsinə qaynar su, üçüncü sınaq şüşəsi isə su və oksigenlə doldurulur. Müşahidə aparılır və müəllimin iştirakı ilə müzakirə edilir. Növbəti dərsdə "Dəmirin birləşmələri, $Fe^{2+}$ və $Fe^{3+}$ ionlarının vəsfi reaksiyaları" mövzusunda şagirdlər çalışırlar ki, müstəqil olaraq dəmirin kimyəvi xassələrini, məhlulda $Fe^{2+}$ və $Fe^{3+}$ ionlarının keyfiyyət reaksiyalarını özləri aparsınlar və izah etsinlər.

Şagirdlərin aktivliyinə nail olmaq üçün əvvəlcədən tapşırıqlar hazırlanır və şagirdlərə verilir. Çox zaman yazı taxtasında yazılır.

**Tapşırıq 1.** Aşağıda göstərilən hidroksidlərin xarakterini təcrübi olaraq necə müəyyən etmək olar : **a)** NaOH; $Cu(OH)_2$ **b)** $Al(OH)_3$; $Cr(OH)_3$ **c)** $H_3PO_4$; $HNO_3$

**Tapşırıq 2.** Reaksiyaları praktik olaraq necə həyata keçirmək olar:

**a)** $Fe^{3+} + 3OH^- = Fe(OH)_3 \downarrow$
**b)** $Cu^{2+} + 2OH^- = Cu(OH)_2 \downarrow$
**c)** $Al^{3+} + 3OH^- = Al(OH)_3 \downarrow$

Həllolmayan əsasların alınmasını izah edin və nəticə söyləyin.

**Tapşırıq 3.** Verilən duzların suda məhlullarının reaksiya mühiti necə olar:

**a)** $ZnSO_4$, $FeCl_3$; **b)** $Na_2CO_3$, $K_2S$; **c)** NaCl, $KNO_3$;

Şagirdlər tapşırıqları icra etdikdən sonra duzların suda məhlulunun yaratdığı mühitin indikator vasitəsilə müəyyən edilməsi, əsasların suda həll olması və amfoter xassələrinə malik olmaları aydınlaşdırılır. Şagirdlərə suda həll olmayan əsasların alınmasında suda həll olan duzlarla qələvilərin qarşılıqlı təsirindən istifadə olunması aydın olur.Şagirdlər müstəqil olaraq:

**a)** $ZnSO_4$, $FeCl_3$ – suda məhlulu turş xassəli ($pH < 7$) ;

**b)** $Na_2CO_3$, $K_2S$ - suda məhlulu qələvi xassəli ($pH > 7$);

**c)** KCl,NaCl – suda məhlulu neytral xassəli (pH=7) olduğunun səbəbi şagirdlərin təcrübə zamanı aldıqları nəticələrə görə izah edilir.

Müəllim şagirdlərin biliklərini inkişaf etdirmək məqsədilə yazı taxtasında verilmiş sxem üzrə müstəqil işin icrasını tapşırır:

Dəmirin birləşmələrinin xassələrini tədqiq edin —
- hidroksidləri: $Fe(OH)_2$, Fe(OH)
- duzları: $FeSO_4$, $Fe(SO_4)_3$, $FeCl_2$, $FeCl_3$

Müəllim sual qoyur: verilən birləşmələri necə almaq olar? Şagirdlər üçün müəyyən çətinlik yaranır. Bu çətinlik müəllimin iştirakı ilə aydınlaşdırılır. Sonrakı mərhələdə $Fe^{2+}$ və $Fe^{3+}$ ionlarının duzlarının alınması və xassələri öyrənilir. Duzların suda məhlulunun turşu və əsasi xassəli olması indikatorla müəyyən edilir. Bundan sonra $Fe^{2+}$ və $Fe^{3+}$ ionlarının keyfiyyət reaksiyalarının praktik

icrası həyata keçirilir. Bu məqsədlə iki ədəd sınaq şüşəsinin birinə $FeCl_2$, ikincisinə isə $FeCl_3$ məhlulu tökülür. $Fe^{2+}$ ionu olan sınaq şüşəsinə $K_3[Fe(CN)_6]$, $Fe^{3+}$ ionu olan sınaq şüşəsinə isə $K_4[Fe(CN)_6]$ məhlulları əlavə edilir. $Fe^{3+}$ ionunu daha dəqiq təyin etmək üçün KCNS məhlulundan istifadə olunur. Reaksiya tənlikləri yazı taxtasında yazılır və şagirdlərin mənimsəmə dərəcəsi aydınlaşdırılır.

Material öyrənildikdən sonra aşağıdakı plan üzrə materialın öyrənilməsi şagirdlərə tapşırılır:

1) $Fe(OH)_2$ və $Fe(OH)_3$ üçün:

a) rəngi;

b) qələvi və turşularda həll olması;

c) oksidləşmək qabiliyyəti (havanın oksigeni yaxud başqa oksidləşdiricilərlə);

2) Fe (II) və Fe (III) duzları üçün:

a) hidroliz;

b) qələvilərlə qarşılıqlı təsiri;

c) $Fe^{2+}$ ionu olan duz məhlullarına $K_3[Fe(CN)_6]$ təsiri;

d) $Fe^{3+}$ ionu olan məhlula $K_4[Fe(CN)_6]$ yaxud KCNS təsiri;

Göstərilən tapşırıqları yerinı yetirmək üçün şagirdlərə oxumaq və işi icra etmək üçün ədəbiyyat verilir.

Müstəqil iş üçün şagirdlərə plan verilir:

**Tapşırıq 1.** Fe (II) və Fe (III) hidroksidlərin tədqiqi:

**Təcrübə 1.** Fe (II) və Fe (III) hidroksidlərin alınması.

**Reaktiv:** NaOH və $FeCl_2$ məhlulları. $FeCl_2$ - ni almaq üçün Fe + HCl → reaksiyasından istifadə edin.

**Təcrübə 2.** Dəmir-hidroksid (II) çöküntüsünə turşuların, hava oksigeninin təsiri.

**Reaktiv :** $Fe(OH)_2$, HCl, $H_2SO_4$ və NaOH məhlulları.

**Təcrübə 3.** Dəmir hidroksidə (III) turşu və qələvilərin təsiri.

**Reaktiv :** $Fe(OH)_3$, HCl, $H_2SO_4$ və NaOH məhlulları.

**Tapşırıq 2.** Dəmir (II) və dəmir (III) birləşmələrinin xassələrinin tədqiqi.

Reaktiv: $FeCl_2$, $FeCl_3$, KCNS, $K_3[Fe(CN)_6]$ məhlulları və lakmus.

Şagirdlərə reaksiya tənliklərini yazmaq tapşırılır. Dəmirin hidroksidləri və duzları haqqında alınan nəticələri ümumiləşdirin. Şagirdlər reaksiya tənliklərini yazmaqla kimyəvi prosesin elmi mahiyyətini izah edirlər. Şagirdlər üçün çətinlik törədən məsələlər müəllim tərəfindən izah edilir. Bu sahədə şagirdlər yeni bilik qazanmaqla yanaşı həm də müstəqil iş icra etmək qabiliyyəti qazanmış olurlar.

Təcrübələrin aparılması qaydasını əks etdirən şəkillərdən ibarət əyani vəsait şagirdlərə verilir (lövhədə asılır) və buna baxmaqla şagirdlər müəllimin nəzarəti altında müstəqil iş aparırlar.

**Təcrübə 1**




**Təcrübə 2.** Dəmir-hidroksidə (II) hava oksigeninin, turşu və qələvilərin təsiri:




**Təcrübə 3.** Dəmir-hidroksidə (III) turşu və qələvilərin təsiri:




**Təcrübə 4.** Fe(II) və Fe (III) duzlarının xassələrinin tədqiqi:

a) hidroliz:




b) $Fe^{2+}$ və $Fe^{3+}$ ionlarının keyfiyyət reaksiyası:

Reaksiyadan əvvəl Reaksiyadan sonra






Verilən təcrübələrin aparılması və reaksiya tənliklərinin yazılması şagirdlərə tapşırılır. Bu tip dərslər şagirdlərdə kimyəvi biliklərin inkişaf etdirilməsinə kömək etməklə yanaşı onlarda kimya eksperimentinə marağı da artırır. Şagirdlər təcrübələr aparmağa çox meyl göstərirlər. Bu isə kimyanın şagirdlər tərəfindən yaxşı öyrənilməsinə səbəb olur.

## İstifadə edilmiş ədəbiyyat:

1.Иванова Р.Г, Савич Т.З. Самостоятелъные работы учащихся по химии. М:, Просвещение.1982.

2.Сурин Ю.В, Юрова Н.С, Попкова Е.В. Проблемно-развивающие опыты с бесцветными растворами солей железа (III) // Хим.в школе.2009, №1, с.50-59.

3.Abbasov V.M., Abbasov M.M., Əliyev R.Y. Bakı, Kimya 9-cu sinif dərsliyi, 2005,191s.

4.Иодко А.Г, Аксенова И.В, Организация самостоятелъной работы учащихся при изучении железа и его соединений // Хим.в школе.1988, №1, с.27-31.

5.Базелюк И.И Об организации самостоятелъной работы по изучению нового материала // Хим.в школе.1987, №3, с.29-32

6.Полосин В.С.Формирование и значение эксперименталъных умений учащихся // Хим.в школе.1983, №4, с.57.

***А.Н.Курбанов, А.Б.Имамалиев, А.Ф.Сафарова***

**В преподавание тему железо и его соединения, организация самостоятельных работ и улучшения знаний учащихся**

## АННОТАЦИЯ

Для решение проблемы повышение уровня знаний и увеличить активность учеников, выполнять самостоятельных работ один из эффективных способов. Учитель должен сделать так, чтобы весь класс принимал участие в уроке. С этой целью учитель должен иметь в виду знания каждого ученика в классе и организовать темы на самостоятельной работы. Для решения этой задачи учитель должен выбрать задания для учеников каждому по своему уровни знания. Учитель конкретно должен организовать самостоятельную работу и проведение методики железа и его соеденения.

**A.N.Gurbanov, A.B.Imamaliyev, A.F.Safarova**

**In the teaching of the theme iron and its compounds organization independent works of pupils and improving of the knowledges**

## ANNOTATION

In solving of the problem to improve the activities of the pupils and to increase knowledge of the level, one of the effective directions, to pass their's independent works. The teacher must do so that let, all class take part in the lesson. For this purpose, teacher must organize the theme for independent work, takes into account of knowledge level of the each pupils in all class. For to solve this issue, the teacher must choose suitable tasks for knowledge level of the each pupils. The teacher definitely must give organization of independent work and methods about iron and its compounds.

**Açar sözlər:** metal, elektron quruluşu, dövr, dəmir, oksidləşmə dərəcəsi, hidroksid

**Ключевые слова:** метал, электронная структура, цикл, железа, градус окисления, гидроксид

**Key words:** metal, electronic structure, cycle, iron, oxidation grade, hydroxide